# AZƏRBAYCANLIYAM, AZƏRBAYCANLI




Əjdər Qiyaslı
İqtisadçı alim, şair


Dünya azərbaycanlılarının
həmrəyliyinə ithaf edirəm.

Mənim qismətimə bir diyar düşüb,
Dünya nemətindən şirin bar düşüb.
O elə diyardır axar-baxarlı,
Dağları vüqarlı, bağçası barlı.
Hər qarış torpağı qızıldı,zərdi;
Gözləri dalğalı, mavi Xəzərdi.
Qoynunda buruqlar məskən salıbdı,
Ömrünün üzünü sevinc alıbdı.
Zəmidə sünbülü tel-tel daranır,
Torpağın qoynunda bolluq yaranır.
Gözünün nurudu möhtəşəm Bakı,
Şəhərlər içinin gözəli, pakı.
Güllü-gülüstandı, hər bir guşəsi,
Şəfəqlər qoynunda gəncləşir səsi.
Qəlbində əbədi çilçıraq yanır,
Hündür binaları ərşə dayanır.
Onlardan vüqarla göyə baxanda,
Elə bil ulduzlar yanır yaxanda...
Sular qoynundadır hər üç tərəfdən,
Taleyi yazılıb gözəl şərəfdən.
Qənirsiz gözəllik bəxş olub ona,
Şan-şöhrət yaranıb Azərbaycana...
Ölkəmin hər yeri sərvətdi, vardı;
Dünyada misilsiz zəngin diyardı.
Mili, Muğanı var   Şəki, Şirvanı
Füsunkar guşədi onun hər yanı.
Min nemət yetirən barlı bağı var,
Ömrünün bəzəyi Qarabağı var.
Lənkəran, Astara sahil boyunca.
Könüllər oxşayır ürək doyunca.
Naxçıvan, Ordubad   gözəl məkandı,
Günəşlə nurlanan nəqşi -cahandı
Qənirsiz gözəldi Şahbuz yaylağı,
Könüllər mülkünün olub oylağı.
Büllur çeşmələri gözün nurudu,
Murovu, Qoşqarı   şah qürurudu!
Bəxtinə düşübdür belə bir yazı,-
Gözəldir Qusarı   Quba- Xaçmazı.
Güllü-gülüstandı çölü-çəməni;
Ətrini bol saçır tər yasəməni.
Bülbülün eşqilə açılır gülü,
Saçını darayır sarı sünbülü.
Ceyranın,cüyürün hürkək baxışı
Könül pərvazıdı, çölün naxışı.
Göllərdə şövq ilə sonası süzür,
Durnalar köçünü qatara düzür.
Aləmə səs salır gur şəlaləsi,
Bağrını yandırır xallı laləsi.
Cənnət guşəsidir dağ yamacları,
Loğman çiçəklərdir onların barı
Şehdən çiçəkləri sırqalar taxır,
Sayrışan ulduzlar həsrətlə baxır.
Qəlbindən süzülür hər coşan çayı,
Köksündə əks edir gecələr Ayı.
Səmada qartalı erkən oyanır,
Uca zirvələrdə məğrur dayanır!..
O elə diyardı gendi ürəyi,
Boldur süfrəsində duzu, çörəyi.
O Odlar Yurdudu- qonaq-qaralı,
Köksündə yer verir olsa haralı.
Üzünün nurudu isməti, arı;
Dillənir kamanı,oxuyur tarı.
Dönməyir getdiyi doğru yolundan,
Ümidsiz olanın tutur qolundan!
Yazıb bayrağına haqq-ədaləti,
Düz yola səsləyir bəşəriyyəti!
Tanıyır düşməni, bilir yağını
Əlindən qoymayır saz yarağını!
İstiqlal səslənir onun səsində,
Müstəqil ölkədir Yer kürəsində.
Özünü dünyada tanıtsın deyə,
Üçrəngli bayrağı ucaldır göyə!
Qara buludların bağrını yarır,
Səmada ulduzlar həsəd aparır...
Enilməz bayraqdır bütün cahana,
Ucalıq taleyi bəxş olub ona!
Gecə də, gündüz də hey dalğalanır,
Qəlbində sönməyən bir günəş yanır.
Öncə qabaqlayır dövrü, zamanı;
Uca zirvələrdir onun məkanı!
İnamla irəli gedir karvanı,
Müdriklər olubdur onun sarvanı.

Ölkələr içində ucadır adı,
Açılıb qartaltək qolu-qanadı.
Oğuz ellərinin qızıl tacıdı,
Günəşlə həmdəmdi, Ayla bacıdı,
Könül dünyasına vəfalı yardı,
Tanrının bəxşişi - cənnət diyardı.
Zəkası nurludu, hikməti dərin;
Gözündə ucalır bütün bəşərin.
Belə şöhrətlidir bizim ölkəmiz,
Amalı uludur, qüdrəti dəniz!
Pozulmaz yaranıb məsləki, andı;
Dünyanın gözündə nəqşi-cahandı.
Ellərin ocağın alovlandırır,
Könüllər mülkündə işıq yandırır!
Taleyi güllənən gözəl diyardır,
Qoynunda yaşayan nə bəxtiyardır.
Belə məkanlıyam, belə məkanlı,-
Azərbaycanlıyam, Azərbaycanlı!

ədalət.2016.30 dekabr.4.